# Xidmət abonentləri razı salır

*Azərbaycanda həyata keçirilən surətli sosial-iqtisadi inkişaf ölkə həyatının bütün sahələrində, o cümlədən elektrik enerjisi təchizatı ilə bağlı müasir infrastrukturun yaradılması istiqamətində mühüm nailiyyətlərin əldə olunmasına əlverişli şərait yaratmışdır. Yaradılma tarixi ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlı olan müstəqil Azərbaycanın energetika sistemi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müxtəlif vaxtlarda təsdiq olunmuş Dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində daha da inkişaf etdirilərək, dünya standartlarına uyğun səviyyədə yenidən qurulmaqdadır.*

*Abonentlərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz olunması istiqamətində Abşeron Rayon Enerji Təchizatı və Satışı İdarəsində hansı işlər görülür? Biz bu məqsədlə "Azərişıq" ASC Xırdalan Enerji Təchizatı və Satışı İdarəsində olduq. İdarənin rəisi təcrübəli energetik* ***Nemət Qasımov*** *bizi maraqlandıran məsələlərə aydınlıq gətirərək dedi:*

—Ölkəmizin hər yerində olduğu kimi, bu gün bizim idarənin ərazisində də "Azərişıq" ASC-nin tədbirlər planına uyğun olaraq abonentlərin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin olunmasına, elektrik şəbəkəsinin dünya standartlarına uyğun yenidən qurulmasına maksimum səy göstərilir.

Vurğulamaq lazımdır ki, idarəmizin kollektivi Xırdalan, Masazır, Qobu, Hökuməli, Dəşgüzdək, Aşağı Güzdək, Atyalı, 28 May, Müşfiq qəsəbəsi, Pereküşkül, Yenikənd, Çaylı və digər ərazilərdə əhali və qeyri-əhali sektorunda abonentlərin keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təchiz olunması üçün məqsədyönlü iş aparır.

"Azərişıq" ASC Abşeron Enerji Təchizatı və Satışı İdarəsi 2015-ci il aprel ayının 15-dən fəaliyyətə başlamışdır. İşin operativliyi təmin olunduğundan həmin müddətdən iyulun 15-dək energetiklərimizin birgə səyi nəticəsində bir sıra uğurlu nəticələrə imza atılmışdır.




Qeyd etmək lazımdır ki, qısa bir vaxtda rayonun ərazisində 26 ədəd müxtəlif güclərdə KTM-lər quraşdırılmışdır və hazırda 12 yeni KTM tikilir. Müxtəlif ərazilərdə 6 minə yaxın sayğac quraşdırılmış, Masazır qəsəbəsində 550 0,4 kv-luq dayaqlar basdırılmış, 880 abonenti əhatə edən SİP kabelləri quraşdırılmışdır.

Hazırda Qobu qəsəbəsində salınmış yeni yaşayış massivində 1000-ə yaxın abonenti əhatə edəcək 0,4 kv-luq şəbəkə tikilir.

İyulun 15-dək Masazır qəsəbəsində 210 kv-luq xətt əsaslı təmir edilmiş, dayaqlar quraşdırılmış, AS-50 markalı məftillər dəyişdirilmişdir.

Müşfiq qəsəbəsini qidalandıran yaşayış 1, yaşayış 2 hava xətlərinin məftilləri yenilənmiş, xəttin əsas hissəsi təmir olunmuşdur.

Qobu və Hökuməlidə həyətyanı sahələrdən keçən və istismar müddəti qurtaran dayaqlar yenisi ilə əvəz edilmişdir.

Qeyd etmək lazımdır ki, rayonun perspektivi nəzərə alınaraq enerji təchizatı proqramı hazırlanmış, yeni güc mənbələrinin yaradılması üçün tikiləcək 110/35 kv-luq yarımstansiyaların yerləri müəyyənləşdirilmişdir. Ayrılmış torpaq sahələrinin rayon icra hakimiyyəti tərəfindən sərəncamları verilmişdir. Hazırda müvafiq infrastrukturlarla razılaşmalar aparılır.

Nemət Qasımov sözünə davam edərək vurğuladı ki, idarədə qarşıdakı qış mövsümünə hazırlıq məqsədilə tədbirlər planı hazırlanmış, görüləcək işlər aylara və həftələrə bölünmüşdür.

Hazırda rayon ərazisində 63615 abonent qeydə alınmışdır. Mütəmadi olaraq əhali arasında geniş maarifləndirmə işləri aparılır, abonentlərə tövsiyyə olunur ki, təhlükəsizlik texnikasına düzgün riayət edilsin. Əsas məqsədimiz odur ki, ilin ikinci yarısında yığım faizi yüksəlsin, "Azərişıq" ASC tərəfindən qarşıya qoyulan vəzifələr uğurla icra olunsun.



Abonent Etirazları Komissiyasının fəaliyyəti də təqdirəlayiqdir. Abonentlərin üzləşdikləri problemlərin vaxtında aradan qaldırılması üçün məqsədyönlü iş aparılır.

Dünyanın aparıcı şirkətlərinin istehsal etdikləri müasir avadanlıqların alınıb quraşdırılması, yüksək texnologiyaların tətbiqi müasir tədris prosesinin yaradılmasını labüd edir.

Bu istiqamətdə kadr və kadr hazırlığı problemini uğurla həll etmək, eləcə də "Azərişıq" ASC-də tələb olunan təcrübəli kadr potensialını artırmaq üçün Tədris Mərkəzi fəaliyyət göstərir. İstifadə olunacaq müasir avadanlıqların öyrənilməsi məqsədilə idarəmizin işçiləri mütəmadi olaraq Tədris Mərkəzindəki kurslara göndərilir. Şübhəsiz ki, bu da yeni uğurların qazanılmasında mühüm rol oynayır.

Ümumiyyətlə, rayonda energetiklərin işi təqdirəlayiqdir. Abonentlərin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchiz edilməsi diqqət mərkəzindədir.

**Söhbəti yazdı:**
**Qədir ASLAN,**
**"Respublika".**